**Şahmat turnirinin finalçıları bəlli oldu**

Məlum olduğu kimi, aprel ayının 14-dən Yasamal rayon Şahmat və Dama Mərkəzində vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş ənənəvi şahmat turnirinə start verilmişdir. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən təşkil edilmişdir. Xatırladaq ki, bu, sayca 7-ci turnirdir. Turnirdə vergi orqanlarının bütün struktur bölmələrindən 32 nəfər iştirak edir.
Aprelin 28-də turnirin finalçıları bəlli olmuşdur. Yarımfinalda Nicat Həsənova qalib gələn Əli Həsənov finala yüksəlmişdir. Digər yarımfinal qarşılaşmasında isə Babək İbrahimovdan üstün olan Azay Məmmədov da finala vəsiqə qazanmışdır.
Beləliklə, turnir may ayının 5-də keçiriləcək final oyunu ilə başa çatacaqdır.